UOT: 657:657.1:M40; M48

Vüqar Muxtar oğlu MEHDİYEV
Azərbaycan Kooperasiya Universitetinin dosenti,
iqtisad üzrə fəlsəfə doktoru.
AZ1124, Azərbaycan Respublikası,
Bakı şəhəri, N.Nərimanov küç.93,
E-mail: vugarmehdiyev@yandex.ru
https://doi.org/10.30546/4.71.73001.2025.003.03

AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINDA MÜƏSSİSƏ KAPİTALININ İŞTİRAKININ MÜASİR VƏZİYYƏTİNİN ARAŞDIRILMASI

Xülasə

Tədqiqatın məqsədi: Bir çox tədqiqat işlərində həm müəssisə kapitalının, həm də milli iqtisadiyyatın inkişafının çoxsaylı məsələləri araşdırılmışdır. Bununla belə, müəssisə kapitalının ölkənin milli iqtisadiyyatının inkişafında nə kimi rol oynaması kifayət qədər araşdırılmamışdır. Bu məqalə tədqiqatçıların diqqətinin belə bir məsələyə yönəldilməsinə xidmət edir.

Tədqiqatın metodologiyası – sistemli yanaşmaya və müqayisəli təhlilə əsaslanmaqla, ölkədə həyata keçirilmiş iqtisadi islahatlara dair dövlət proqramları və onların nəticələrinin araşdırılmasından, həmçinin müəssisənin kapitalına və onun iqtisadi inkişafla bağlılığına dair müxtəlif tədqiqat işlərində əks olunmuş nəzəri müddəaların ümumiləşdirilməsindən ibarətdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti: Bu tədqiqat işi milli iqtisadiyyatın gələcək inkişafının təmin edilməsi üçün mütəxəssis və tədqiqatçıların diqqətini ayrı-ayrı müəssisələrin kapitalının artırılmasına və onun idarəetmə səmərəliliyinin daha da yüksəldilməsinə fokuslandıracaq və bununla da prioritet istiqamətlərdə hədəflənən iqtisadi inkişaf səviyyəsinə çatmağa müsbət təsir göstərəcəkdir.

Tədqiqatın nəticələri: Müəssisə kapitalının həcmi ilə milli iqtisadiyyatın inkişaf göstəriciləri arasında dəstəkləyici əlaqələrin olması diqqətə çatdırılmışdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi: Müəssisə kapitalının mövcud vəziyyəti ilə milli iqtisadiyyatın inkişaf göstəriciləri arasında birbaşa əlaqənin olmasının və ayrı-ayrı müəssisələrdə kapitalın artırılmasının ölkənin ümumi iqtisadi inkişafına müsbət təsir göstərməsinin əsaslandırılmasından ibarətdir.

Açar sözlər: müəssisənin kapitalı, iqtisadi inkişaf, maliyyə resursları, ÜDM-in artımı.

Giriş

Hər bir iqtisadi tərəqqini əsaslandıran başçıla amillərdən biri də müəssisə kapitalıdır. Müəssisə kapitalı müəssisələrin müxtəlif istiqamətlərdə fəaliyyətlərini həyata keçirmək, istehsal etmək, xidmət göstərmək, bazarda rəqabət mübarizəsi aparmaq üçün zəruri olan maliyyə vəsaitlərini ifadə edir. Müəssisə kapitalı, həmçinin ölkənin ümumi iqtisadi inkişafının sürətlənməsində mühüm rol oynayaraq, iqtisadi inkişafa, iqtisadi artıma, məşğulluğun təmin olunmasına, innovasiyaların tətbiqinə təkan verir.

Ümumilikdə isə, müəssisənin kapitalı, aktivlərə yatırılan və gəlir gətirən maliyyə vəsaitidir. Aktivlər isə müəssisənin əmlakını, pul vəsaitini, həmçinin əsas və dövriyyə vəsaitlərini özündə birləşdirir. Hər bir müəssisənin maliyyə resursları xüsusi borc və cəlb olunmuş pul vəsaitlərinin cəmindən ibarətdir ki, bu vəsaitlərdən istifadədə əsas məqsəd maliyyə öhdəliklərinin yerinə yetirilməsi, cari xərclərin qarşılanması və kapitalın genişləndirilməsi üçün lazımi xərclərin maliyyələşdirilməsidir. Təsərrüfat fəaliyyətini uğurla həyata keçirmək üçün hər bir müəssisə müəyyən miqdarda əmlaka malik olmalıdır ki, bu əmlak da həmin müəssisənin mülkiyyətində və sərəncamında olur. Müəssisənin əmlakı onun aktivlərini təşkil edir və bu aktivlər iqtisadi resurslar olaraq, mənfəət əldə etmək məqsədilə təsərrüfat fəaliyyətində istifadə olunur. Kapital, əsasən, aktivlərə qoyulan və gəlir gətirən vəsaitdir, aktivlər isə əsas və dövriyyə kapitalından, əmlakdan və pul

vəsaitindən ibarət olur. Bütövlükdə isə, müəssisənin kapitalı iqtisadi artıma, tərəqqiyə ciddi təsir edir [12, s. 67]. Xüsusilə də, özəl təsərrüfat subyektlərinin üstünlük təşkil etdiyi bazar münasibətləri şəraitində ayrı-ayrı müəssisələrə məxsus kapital ümumi iqtisadi tərəqqiyə, makroiqtisadi nəticələrə ciddi təsir göstərir.

Müəssisənin kapitalı iqtisadi artımın əsas təkanverici qüvvələrindən biridir

Kapitalın artırılması və səmərəli istifadəsi yeni müəssisələrin yaranmasına, mövcud müəssisələrin genişlənməsinə və onların istehsal potensialının artırılmasına səbəb olur. Kapitalın doğru yönləndirilməsi, məhsul istehsalını artırmağa, təklif edilən xidmətlərin say və miqyasını genişləndirməyə, bu isə nəticədə ümumi daxili məhsulun (ÜDM) artımına gətirib çıxarır.

Müəssisə kapitalı, yeni texnologiyaların və innovasiyaların inkişafını təmin etmək üçün də əhəmiyyətli rola malikdir. Ona görə ki, yeniliklərin tətbiqi, yeni texnika və texnologiyaların əldə olunması müəyyən vəsait qoyuluşu tələb edir. Müasir iqtisadiyyatda isə müəssisələr yalnız mövcud məhsullarını istehsal etməklə kifayətlənmirlər, həmçinin texnologiya və yeniliklərə yatırım edərək yeni məhsul və xidmətlər yaradırlar. Bu proses həm daxili bazarda, həm də beynəlxalq səviyyədə rəqabət qabiliyyətini artırmağa xidmət edir. Başqa sözlə desək, müəssisə kapitalı həm də rəqabətqabiliyyətliliyi, keyfiyyəti təmin etməyin təkanvericisi kimi çıxış edir [13, s. 126].

Beləliklə, müəssisə kapitalı iqtisadi inkişafın sürətlənməsində, yeni iş yerlərinin yaradılmasında, innovasiyaların inkişafında və ümumi iqtisadi sabitliyin təmin edilməsində, xüsusilə bazar münasibətləri şəraitində, əvəzsiz rol oynayır. Həm müəssisə sahibləri, həm də hökumətlər üçün bu kapitalın səmərəli idarə olunması çox önəmlidir. Kapitalın düzgün istifadəsi iqtisadiyyatın müxtəlif sahələrində böyümə və inkişaf imkanlarını artıraraq iqtisadi artımın dayanıqlı olmasına kömək edir [7, s.10]. Əslində, bazar münasibətlərinin hakim olduğu milli iqtisadiyyatların təhlili müəssisə kapitalından istifadə nəticələrini bu və ya digər dərəcədə ifadə edir. Daha konkret ifadə etsək, özəl təsərrüfat subyektlərinin aparıcı rol oynadığı ölkələrdə iqtisadi inkişaf dinamikasında müəssisə kapitalının da özünəməxsus rolu vardır. Bütün bunları Azərbaycan iqtisadiyyatı timsalında nəzərdən keçirək.

Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri. Məlumdur ki, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan iqtisadiyyatı müxtəlif inkişaf mərhələlərindən keçmişdir. Müstəqilliyin ilk illərindən 1994-cü ilə qədər ölkə iqtisadiyyatında tənəzzül yaşanmış, 1995-ci ildən 2003-cü ilə qədər isə stabillik və dinamik inkişaf dövrü müşahidə olunmuş, sonrakı illərdə isə davamlı inkişaf dövrü başlamışdır. İqtisadi tənəzzül dövrü (1991-1994-cü illər) qeyri-sabitlik və iqtisadi çətinliklərlə xarakterizə olunmuşdur. Bu dövrdə müstəqillik əldə edildikdən sonra dövlət idarəçiliyində təcrübəsizlik, ölkədaxili siyasi böhranlar, Ermənistanın müharibəyə təhrik etməsi və ölkə ərazisinin 20%-nin işğalı, əksər istehsal sahələrinin fəaliyyətinin dayanması, keçmiş ittifaq respublikaları ilə iqtisadi əlaqələrin kəsilməsi, bazar iqtisadiyyatı elementlərinin qeyri-sabit inkişafı kimi problemlər mövcud olmuşdur. Nəticədə, ÜDM hər il orta hesabla 13-20% azalmış, adambaşına düşən ÜDM 72% azalmış, əhalinin real pul gəlirləri 3,6 dəfə, əməkhaqqı isə 8,2 dəfə düşmüşdür. Eyni zamanda, ölkədə hiperinflyasiya 1763%-ə çatmışdır.

1995-2003-cü illərdə isə Azərbaycan iqtisadiyyatında dinamik inkişaf müşahidə edilmişdir. Bu dövr sabitlik, müvafiq normativ-hüquqi bazanın formalaşması və iqtisadi artımla xarakterizə olunmuşdur. Ulu Öndər Heydər Əliyevin ölkədə ictimai-siyasi sabitliyi təmin etməsi, makroiqtisadi sabitlik və davamlı iqtisadi inkişaf baş vermiş, "Əsrin müqaviləsi" ilə Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası təmin olunmuşdur. 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə Bakı-Supsa və 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərlərinin istismara verilməsi, Dövlət Neft Fondunun yaradılması, beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq və dövlət mülkiyyətinin özəlləşdirilməsi ölkə iqtisadiyyatının inkişafına mühüm təsir göstərmişdir. Həmçinin, torpaq islahatları, sahəvi sosial-iqtisadi inkişaf proqramları və sərt büdcə-pul siyasəti ilə sahibkarlıq mühiti yaxşılaşdırılmışdır. Nəticə etibarilə, ÜDM-in orta illik artımı 9% olmuş, adambaşına düşən ÜDM 3 dəfə artmış, özəl sektorun ÜDM-dəki payı 73%-ə çatmış, orta aylıq real əməkhaqqı 5,6 dəfə artmışdır. Xarici və daxili investisiyalar artmış, istehlak qiymətləri indeksi 512%-dən 2,2%-ə

qədər düşmüşdür. Dövlət büdcəsinin gəlirləri 3 dəfə artmış, büdcə kəsiri isə minimuma enmişdir. Bu dövr Azərbaycan iqtisadiyyatının Cənubi Qafqazda 50%-dən də çox payla əsas iqtisadi qüvvə olduğunu bir daha açıq şəkildə ortaya qoydu.

Təbii ki, əldə edilən nəticələrdə davamlı şəkildə həyata keçirilən sahəvi və regional inkişaf proqramlarının xüsusi payı vardır. Başqa sözlə desək, qəbul edilən sənədlərin bir-birini tamamlaması, eləcə də icra proseslərinin düzgün təşkili əldə edilən nəticələrin dinamikasını təmin edir. Xronoloji ardıcıllıqla yanaşsaq, bu mənada, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış İnkişaf Konsepsiyası" mühüm əhəmiyyət kəsb edir. Ölkənin iqtisadi və sosial inkişaf istiqamətlərini özündə əks etdirən proqram xarakterli bu Konsepsiyanın yerinə yetirilməsi nəticəsində Azərbaycan özünün malik olduğu imkan və resurslardan səmərəli istifadə etməklə, davamlı iqtisadi artıma və yüksək sosial rifaha əsaslanan yüksək inkişaf mərhələsinə keçmişdir.

Sözügedən İnkişaf Konsepsiyasında qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli 1138 saylı Fərmanı ilə konkret istiqamətləri əhatə edən "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" təsdiq edilmişdir [12]. Strateji Yol Xəritəsi qısamüddətli, ortamüddətli və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək olan qısamüddətli dövr üçün iqtisadi inkişaf strategiyası və tədbirlər planından, 2025-ci ilədək olan ortamüddətli dövr üçün strateji baxışdan və 2025-ci ildən sonrakı dövr üçün uzunmüddətli hədəf baxışından ibarətdir.

Adları göstərilən Strateji Yol Xəritələrində 2020-ci ilədək olan qısamüddətli dövr üçün iqtisadi inkişaf strategiyasının və tədbirlər planının həyata keçirilməsi nəticəsində ölkə iqtisadiyyatı önəmli inkişaf yolu keçmişdir. Bu yolda əldə olunmuş nailiyyətlər 2025-ci ilədək olan ortamüddətli dövr üçün nəzərdə tutulan strateji baxış məqsədlərinə çatmaq üçün əlverişli baza yaratmışdır ki, bunlar da öz növbəsində iqtisadi inkişafda 2025-ci ildən sonrakı dövr üçün nəzərdə tutulmuş uzunmüddətli hədəf baxışlarına da nail olacağımızdan xəbər verir.

Bütün bunların davamı kimi, Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli Fərmanı ilə, ölkə iqtisadiyyatının müasir inkişaf istiqamətlərinin müəyyən edilməsində mühüm sənəd olan, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" qəbul edilmişdir [3]. Konseptual xarakterli bu sənəddə ölkənin iqtisadi və sosial inkişafının 5 prioritet istiqaməti və onların müvəffəqiyyətlə həyata keçirilməsi üçün hər bir prioritetə dair məqsədlər müəyyən edilmişdir. Bunlar aşaşğıdakılardır:

1. "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat" prioritetinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün iki məqsəd müəyyən edilmişdir: davamlı və yüksək iqtisadi artım; daxili və xarici təsirlərə dayanıqlıq [15; s.2].

2. "Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət" prioritetinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün üç məqsəd müəyyən edilmişdir: inkişafdan hər bir vətəndaşın bəhrələnməsi; yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət; paytaxt və regionların tarazlı inkişafı [15; s.4].

3. "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" prioritetinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün üç məqsəd müəyyən edilmişdir: XXI əsrin tələblərinə uyğun təhsil; yaradıcı və innovativ cəmiyyət; vətəndaşların sağlam həyat tərzi [15; s.5].

4. "İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış" prioritetinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün iki məqsəd müəyyən edilmişdir: dayanıqlı məskunlaşma; iqtisadi fəaliyyətə reinteqrasiya [15; s.6].

5. "Təmiz ətraf mühit və "yaşıl artim" ölkəsi" prioritetinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün iki məqsəd müəyyən edilmişdir: yüksək keyfiyyətli ekoloji mühit; yaşıl enerji məkanı [15; s.8].

Burada verilmiş sosial-iqtisadi inkişaf prioritetləri üzrə qarşıya qoyulmuş məqsədlərə nail olmaqla, ölkəmizin milli iqtisadiyyatı 2030-cu ilədək yüksələn templə inkişaf edəcək və bunun da əsasında ölkə əhalisinin maddi rifahı əsaslı şəkildə yaxşılaşacaqdır. Məhz, qarşıya qoyulmuş

hədəflərə nail olunması məqsədilə Milli Prioritetlərin əsasında “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Porqramı” qəbul edilmişdir. “Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti” devizi ilə qəbul edilən proqramda müxtəlif sahələrə dair genişmiqyaslı tədbirlər nəzərdə tutulur.

Araşdırmalardan aydın olur ki, Dövlət Proqramına əsasən, 2024-cü il üçün ÜDM artım hədəfi 4.2% olaraq proqnozlaşdırılmış və 2024-cü ildə ÜDM artımı 4.1% təşkil etmişdir [5]. O cümlədən, 2024-cü il üçün qeyri-neft-qaz ÜDM-inin artım hədəfi 6.4% olaraq proqnozlaşdırılıb və 2024-cü ildə bu artım 6.2% təşkil edib, 2024-cü il üçün qeyri-neft-qaz ixracının həcmi 3.4 milyard ABŞ dolları təşkil edib.

2024-cü il ərzində İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən layihələrinin ümumi dəyəri 481.6 milyon manat olan 5 722 investisiya layihəsinə 248.1 milyon manat güzəştli kredit verilib [6]. Bu kreditlər hesabına 4 334 yeni iş yerinin açılması imkanı yaradılıb. Təbii ki, verilən kreditlər müəssisələrə öz kapitallarını daha da artırmaq və daha geniş fəaliyyət göstərmək imkanı yaradacaqdır. İpoteka və Kredit Zəmanət Fondu tərəfindən sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə hesablanmış faizlərə görə subsidiyanın maliyyələşdirilməsi məqsədilə tələb olunan vəsait tam həcmdə 12.3 milyon manatı Maliyyə Nazirliyi tərəfindən maliyyələşdirilib. 2024-cü il üzrə Fondun zəmanəti ilə müvəkkil banklar tərəfindən sahibkarlara verilən və faiz subsidiyası ödənilən kreditlərin həcmi 174 layihə üzrə 118.5 milyon manat təşkil edib. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən ticarət şəbəkələrində ümumilikdə 8 ədəd daimi satış nöqtəsi yaradılıb. KOBİA tərəfindən ticarət şəbəkələrində yerləşən satış nöqtələrində 21 yeni KOB subyekti məhsullarının satışı həyata keçirilib. Bununla yanaşı, 11 daxili bazar araşdırılmasının həyata keçirilməsinə, həmçinin 517 KOB subyektinə isə 20 sərgidə iştirakı ilə bağlı dəstək göstərilib.

“Yaşıl artım” və sosial sahibkarlığın inkişaf etdirilməsi istiqamətində 2024-cü il ərzində KOBİA tərəfindən həyata keçirilən qrant müsabiqəsi çərçivəsində maliyyə ayrılması barədə qərar qəbul edilən layihələrdən 19-u yaşıl iqtisadiyyat konsepsiyasına aid edilib. 2024-cü il ərzində cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslər üzrə 741 nəfər göndəriş əsasında işlə təmin olunub, 307 nəfər özünüməşğulluq proqramına cəlb edilib, 1 525 nəfərə peşəyönümü məsləhət xidməti göstərilib, 39 nəfər peşə hazırlığına cəlb olunub.

Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestrinin fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını, o cümlədən reyestrin aparılması qaydasını və həmin reyestrə daxil edilməli olan məlumatların siyahısını müəyyən etmək məqsədilə “Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri haqqında” Əsasnamə hazırlanıb və Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 may tarixli 60 nömrəli Fərmanı ilə təsdiq edilib [4]. İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu (SİF) tərəfindən verilən güzəştli kreditlərin əldə edilməsində sadələşmələrin aparılması və müraciətlərin elektronlaşdırılması vasitəsilə daha çox sahibkarın yararlanmasının təmin edilməsi istiqamətində 2024-cü il ərzində ümumi dəyəri 481.6 milyon manat olan 5 722 investisiya layihəsinə 248.1 milyon manat güzəştli kredit verilib. Bu kreditlər hesabına 4 334 yeni iş yerinin açılması imkanı yaradılıb. SİF tərəfindən hesabat dövrü ərzində verilmiş güzəştli kreditlərin həcmi 2023-cü illə müqayisədə (193.8 milyon manat) dəyər ifadəsində 28% (288 milyon manat), layihə sayı (3276 investisiya layihəsi) üzrə isə 74% (2446 investisiya layihəsi) çox olub. Eyni zamanda, pandemiyadan zərər çəkmiş sahibkarlıq subyekt-lərinə dövlət zəmanəti ilə kreditlərin verilməsi məqsədilə proqram çərçivəsində (iyun 2020-ci il - yanvar 2022-ci il) 2025-ci il 01 yanvar tarixə 53.8 milyon manat subsidiya ödənilib. Mövcud kreditlər üzrə faizlərin subsidiyalaşdırılması mexanizmi üzrə isə 2025-ci il 01 yanvar tarixinədək 5 075 müraciət üzrə 73.7 milyon manat faiz subsidiyasının verilməsi barədə qərarlar qəbul edilib və artıq sahibkarlara 72.1 milyon manat faiz subsidiyası ödənişi həyata keçirilib.

2024-cü il ərzində KOB klasterləşməsi şəbəkəsinin yaradılması istiqamətində 50-dən çox investorla birbaşa və ya kollektiv görüşlər keçirilib. Görüşlərdə KOB klasterləri üçün nəzərdə tutulan güzəştlər barədə məlumatlandırma aparılıb və müvafiq təqdimatlar keçirilib. Bu istiqamətdə

aparılan işlərin davamı olaraq, “Paşa Holding” MMC ilə müqavilə bağlanılıb və “KOB Klaster” proqramı çərçivəsində klaster modelinin və ölkə xəritəsinin hazırlanması məqsədilə layihənin icrası davam etdirilib. Eyni zamanda, mütəmadi olaraq KOB klasterləşmənin təşviqi çərçivəsində “Prestij Naxçıvan Pivəsi” MMC, “Absheron Steel Company” MMC və müraciət əsasında sahibkarlıqla məşğul olan fiziki şəxslərə KOB klaster dəstək mexanizmindən istifadə etmələri ilə bağlı danışıqlar aparılıb, görüşlər və təqdimatlar keçirilib.

Məhz, həyata keçirilən proqram və layihələr nəticəsində Azərbaycanda sahibkarlığın inkişafı son illərdə əhəmiyyətli dərəcədə irəliləyiş göstərmiş və ölkə iqtisadiyyatının əsas tərkib hissəsinə çevrilmişdir. Dövlət tərəfindən həyata keçirilən islahatlar, sahibkarlıq mühitinin yaxşılaşdırılması və yeni təşviq proqramları ölkənin biznes sahəsində mühüm dəyişikliklərə səbəb olmuşdur [18]. Sahibkarlığın inkişafı yalnız iqtisadi artımı sürətləndirmək və iş yerlərinin yaradılmasını təmin etmək baxımından vacib deyil, həm də ölkənin ümumi iqtisadiyyatı üçün mühüm rəqabət qabiliyyətini artıran amildir [8].

Ölkədə sahibkarlığın inkişafı üçün müxtəlif təşviq proqramları və hüquqi islahatlar həyata keçirilmişdir [14, s. 47]. Dövlətin təşviqləri, vergi güzəştləri və maliyyə dəstəyi ilə özəl sektorun inkişafına geniş imkanlar yaranmışdır. Müəssisələrin qurulması üçün lazımi hüquqi və iqtisadi mühitin yaradılması, sahibkarların bürokratik maneələrlə qarşılaşmaması üçün müəyyən tədbirlər görülmüşdür. Dövlətin verdiyi müxtəlif subsidiyalar, kreditlər və digər maliyyə dəstəkləri, xüsusilə kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyir.

Sahibkarlığın inkişafı üçün müxtəlif sektorlarda rəqabət qabiliyyətinin artırılması və yeni bazarlara çıxış imkanlarının yaradılması vacibdir. Azərbaycanda xüsusilə kənd təsərrüfatı, turizm, informasiya texnologiyaları, infrastruktur və enerji sahələrində sahibkarlıq təşəbbüsləri artmışdır. Bu sahələrdə inkişaf edən bizneslər həm daxili bazar üçün məhsul istehsal edir, həm də ixracat potensialını artırır. Sahibkarların xarici bazarlara çıxışı, həmçinin yeni iş yerlərinin yaradılması, sosial rifahın yüksəlməsi ilə nəticələnir.

Eyni zamanda, Azərbaycanda sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün rəqəmsal platformaların və innovasiyaların tətbiqi təşviq olunur. Dövlətin “ASAN xidmət” və “Dövlət Xidmətləri” kimi layihələri sahibkarlara daha rahat və şəffaf xidmətlər təqdim edir. Həmçinin, informasiya texnologiyaları sahəsindəki inkişaflar, biznes sahiblərinin işlərini daha səmərəli və iqtisadi cəhətdən faydalı şəkildə idarə etmələrinə imkan yaradır.

Bütün bunlar sahibkarlığın inkişafı üçün möhkəm təməl yaradır, amma hələ də qarşıya çıxan bəzi çətinliklər vardır. Bu çətinliklər arasında xüsusilə maliyyə resurslarına çıxışın məhdudluğu, bəzən uzunmüddətli iqtisadi qeyri-sabitlik və beynəlxalq bazarlarda rəqabət mühiti ilə əlaqəli problemlər yer alır. Lakin, sahibkarlığa dəstək vermək və özəl sektorun inkişafını stimullaşdırmaq üçün görülən tədbirlər, həmçinin təkmilləşdirilən qanunvericilik və idarəetmə sistemi, Azərbaycanın sahibkarlıq mühitinin daha da inkişaf etməsinə müsbət təsir göstərir.

Ümumiyyətlə, Azərbaycanda sahibkarlığın inkişafı həm dövlətin, həm də özəl sektorun əməkdaşlığı ilə mümkündür. Bu inkişaf, ölkənin iqtisadiyyatının şaxələndirilməsi, işsizliyin azaldılması və sosial rifahın yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu sahədəki uğurlar gələcəkdə daha çox yerli və xarici investorların ölkəyə cəlb edilməsinə və Azərbaycanın beynəlxalq biznes mühitində daha güclü mövqe tutmasına şərait yaradacaq.

Statistik araşdırmalar göstərir ki, 2025-ci ilin yanvar ayının 1-nə Azərbaycanda uçotda olan 1597229 vergi ödəyicisindən 87%-i fiziki şəxslər, 13%-i isə hüquqi şəxslər və digər təşkilatlardır. 2024-cü ilin əvvəli ilə müqayisədə vergi ödəyicilərinin ümumi sayı 5.4%, fiziki şəxslərin sayı 5.1%, hüquqi şəxslərin sayı isə 7.3% artmışdır. 2025-ci ilin yanvarına qeydiyyatda olan kommersiya qurumlarının sayı, əvvəlki illə müqayisədə 8% artaraq, 190367 vahid təşkil edib. Qeydiyyatda olan 125696 kommersiya qurumu aktiv vəziyyətdədir. 2024-cü ilin əvvəli ilə müqayisədə aktiv kommersiya qurumlarının sayı 11.6% artıb.

Dövlət qeydiyyatında olan kommersiya hüquqi şəxslərinin 91.4%-i MMC-lər, 1.2%-i səhmdar cəmiyyətlər, 1.1%-i isə kooperativlər və digər formalarda yaradılıb.

Göründüyü kimi, bazar münasibətlərinə uyğun olaraq, ölkəmizdə özəl sektor dinamik inkişaf edir. Ümumi iqtisadi inkişaf, məğşulluğun təmin olunması, büdcə gəlirlərinin artımı və s. bütün istiqamətlərdə aparıcı mövqe özəl təsərrüfat subyektlərinə - müxtəlif təşkilati-hüquqi formaya malik müəssisələrə məxsusdur [17]. Bu mənada, bazar münasibətlərinin hökm sürdüyü dövlətlərdə müəssisələrin kapital imkanları və ehtiyatları milli iqtisafdiyyatın dinamik tərəqqisinin mühüm elementi kimi çıxış edir.

Müəssisənin kapitalının iqtisadi inkişafa təsiri

Müəssisənin kapitalı iqtisadi inkişafda böyük əhəmiyyət kəsb edir və iqtisadiyyatın müxtəlif sahələrinə müsbət təsir göstərir. Müəssisə kapitalı yalnız bir müəssisənin fəaliyyətini təmin edən maliyyə resursları deyil, eyni zamanda ümumilikdə iqtisadi artımı və dayanıqlılığı dəstəkləyən əsas amillərdən biridir [11, s. 192]. Kapitalın düzgün yönləndirilməsi, müəssisələrin istehsal gücünü artıraraq daha çox iş yeri yaradır, yeni texnologiyaların tətbiqinə və innovasiyaların inkişafına şərait yaradır. Bu, həm müəssisənin özünün inkişafını, həm də ümumi iqtisadi mühitin modernləşməsini təmin edir.

Müəssisə kapitalı, eyni zamanda iqtisadiyyatda məşğulluğun artırılması və insan kapitalının inkişafı üçün vacibdir. Yaxşı maliyyələşdirilmiş müəssisələr yeni iş yerləri yaradır və işçilərin ixtisaslarını artıraraq əmək bazarının daha da inkişaf etməsinə kömək edir. Kapitalın effektiv istifadəsi həmçinin resursların səmərəli paylanmasına və istehsal proseslərinin optimallaşdırılmasına imkan verir, bu da iqtisadi artımın sürətlənməsinə gətirib çıxarır [9, s. 231]. Kapitalın müəssisələrə sərfəli investisiyalar etməyə imkan verməsi ölkə iqtisadiyyatının güclənməsinə və beynəlxalq bazarda rəqabət qabiliyyətinin artırılmasına yardımçı olur.

Bundan başqa, müəssisə kapitalı həm daxili istehsalın artırılmasına, həm də ixracatın gücləndirilməsinə imkan verir. Bu, ticarət balansının yaxşılaşdırılması və ölkənin iqtisadi dayanıqlığının artırılması baxımından vacibdir. Kapitalın düzgün idarə edilməsi iqtisadiyyatın çevik və adaptiv olmasını təmin edir, çünki güclü kapitala malik müəssisələr böhran dövrlərində belə daha sürətli bərpa oluna bilir.

Bütün bunlar Azərbaycan iqtisadiyyatının dinamikasında da özünü açıq şəkildə büruzə verir. Məhz bunun nəticəsidir ki, 2003-2023-cü illər Azərbaycan iqtisadiyyatının keçid dövrünü başa vuraraq davamlı inkişaf dövrünə qədəm qoyduğu və iqtisadi sahədə ciddi uğurların əldə olunduğu bir dövr olmuşdur. Bu dövr ərzində Azərbaycan iqtisadiyyatı proqram təminatlı inkişaf, makroiqtisadi sabitlik və sürətli iqtisadi artım ilə xarakterizə olunmuşdur [10, s. 47]. Müstəqil dövrdə əldə olunan uğurlar, həmçinin bu dövrün xüsusiyyətləri ölkənin sosial-iqtisadi inkişafını daha da möhkəmləndirmişdir.

Bu dövrün ən mühüm xüsusiyyətləri arasında makroiqtisadi sabitliyin təmin edilməsi, büdcə kəsirinin minimum səviyyəyə endirilməsi, inflyasiyanın idarə olunan olması və qanunvericilik bazasının təkmilləşdirilməsi yer alır. Yoxsulluq səviyyəsinin azaldılması və məqsədli Dövlət Proqramlarının hazırlanması və həyata keçirilməsi də bu dövrün əsas istiqamətləri arasında olmuşdur. Regionların sosial-iqtisadi inkişafı, əhalinin ərzaq məhsulları ilə təminatının gücləndirilməsi, yoxsulluğun azaldılması və davamlı inkişaf, gənclərin xaricdə təhsili üzrə dövlət proqramları, müxtəlif sahəvi inkişaf proqramlarının həyata keçirilməsi mühüm addımlar arasında yer almışdır.

Əlavə olaraq, şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə məqsədilə 2007-ci ildə Milli Strategiya hazırlanmış, dövlət investisiya proqramları çərçivəsində isə irimiqyaslı sosial və infrastruktur layihələri həyata keçirilmişdir. Bu dövrdə, yeni enerji güclərinin istifadəyə verilməsi, bərpa olunan və alternativ enerji layihələri, turizm sektorunun inkişafı, məktəb, xəstəxana və idman kompleksləri kimi sosial obyektlərin tikilməsi və istifadəyə verilməsi önəmli addımlar arasında olmuşdur [16]. Həmçinin, nəqliyyat infrastrukturu yenidən qurulmuş, Avrasiyanın nəqliyyat dəhlizi imkanlarından istifadə edilərək Bakı-Tbilisi-Qars dəmir yolunun inşası və Ələt qəsəbəsində beynəlxalq dəniz ticarət limanı kompleksinin yaradılması müasir infrastruktur layihələrinə nümunədir.

Kənd təsərrüfatına dövlət dəstəyinin artırılması, biznes və investisiya mühitinin yaxşılaşdırılması və sahibkarlığın inkişafı məqsədilə bir sıra islahatlar həyata keçirilmişdir. Xüsusilə kiçik və


orta sahibkarlıq subyektlərinin inkişafı üçün mühitin yaradılması, vergi yükünün azaldılması və iqtisadi zonaların yaradılması kimi tədbirlər diqqətə çatdırılmışdır [15]. Bu dövr həmçinin beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın iqtisadi nailiyyətlərinin tanınması ilə yadda qalır. Azərbaycanın mineral ehtiyatlar üzrə şəffaflıq təşəbbüsü ilə bağlı əldə etdiyi status, Dövlət Neft Fondunun beynəlxalq mükafata layiq görülməsi, ölkənin reytinqlərdə mövqelərinin yaxşılaşması bu uğurlardan bəziləridir.


Qlobal maliyyə-iqtisadi böhrana qarşı ölkənin dayanıqlılığını qorumaq, neft-qaz və alternativ enerji ixracına dair müqavilələrin imzalanması və strateji yol xəritələrinin hazırlanması bu dövrün digər mühüm aspektləridir. Həmçinin, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası və “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” qəbul edilmiş və bu istiqamətdə ardıcıl işlər görülmüşdür [3].


Ərazi bütövlüyünün bərpa edilməsi, işğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi məqsədilə qəbul edilən tədbirlər planı və Böyük Qayıdışa dair Dövlət Proqramı, ölkənin sosial-iqtisadi inkişafını daha da möhkəmləndirmişdir. Bu dövrün sonunda Azərbaycan iqtisadiyyatı daha müstəqil və dayanıqlı vəziyyətə gəlib çatmış, gələcək inkişaf üçün möhkəm təməl yaradılmışdır.

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etməsinin 20 ilini əhatə edən 2003-2023-cü illərin sosial-iqtisadi mənzərəsini konkret rəqəmlərlə aşağıdakı kimi təsvir etmək olar[1]:

20 il ərzində real ÜDM 3.6 dəfə artmışdır və bu artım adambaşına düşən ÜDM-də də özünü göstərmişdir. 2003-2023-cü illər arasında adambaşına düşən ÜDM 872.7 manatdan 12114.5 manata qədər yüksəlmiş, bu da real olaraq 2.9 dəfə artım olduğunu göstərir [18].








Oxşar mənzərə qeyri-neft-qaz sektoru üzrə ÜDM-də də təmin edilib:

ÜDM-in ümumi artımı qeyri neft-qaz sektoru üzrə artım göstəricisinə yaxındır ki, bu da qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlərin real nəticəsidir. Nəzərdən keçirilən dövrdə ÜDM-in artımı neft-qaz sektoru üzrə 3.6 dəfə, qeyri-neft-qaz sektoru üzrə isə 3.5 dəfə olub.


[1] https://ereforms.gov.az/files/review/pdf/az/9526f22637142971331f577c211e3ec1.pdf

Baxılan dövrdə özəl sektorun inkişafı sahibkarlığa dövlət dəstəyinin artırılması nəticəsində iqtisadiyyatda qeyri-dövlət sektorunun payı da üstünlüyünü möhkəmləndirmişdir. Belə ki, 2003-2023-cü illərdə ÜDM-də qeyri-dövlət sektorunun payı 13.2 faiz bəndi artaraq 73.3%-dən 86.5%-ə çatıb. Bu dövrdə strateji valyuta ehtiyatları da nəzərəçarpacaq dərəcədə - 42.8 dəfə artıb ki, bu da həyata keçirilən məqsədyönlü siyasətin nəticəsi kimi, həm də ərazi bütövlüyümüzün təmin olunmasının əsas iqtisadi dayağı kimi qəbul edilə bilər. Baxılan dövrdə Mərkəzi Bankın valyuta ehtiyatları da 14.5 dəfə artaraq 2003-cü ildəki 0.8 milyard dollardan 2023-cü ildə 11.6 milyard dollara çatmışdır. Bu müddətdə əsas kapitala investisiyalar 5.3 dəfə, bütün mənbələrdən iqtisadiyyata cəlb olunmuş investisiyalar 4.0 dəfə, qeyri-neft-qaz sektoruna cəlb olunmuş investisiyalar 9.5 dəfə, xarici ticarət dövriyyəsi isə 9.8 dəfə artmışdır. Bütün bunları vizual olaraq aşağıdakı diaqramlardan da görmək mümkündür.









Əldə edilən iqtisadi uğurları Vətən müharibəsində qazanılan tarixi ZƏFƏR, yeni və zəngin təbii-iqtisadi resurslara çıxış daha da möhkəmləndirməyə və artırmağa imkan verəcəkdir. Azərbaycan Hökumətinin siyasət prioritetləri, milli prioritetləri və dayanıqlı inkişaf məqsədləri potensial imkanlardan daha səmərəli və qənaətlə istifadəni tövsiyə edir. Ölkəmizin yaşıl enerji mənbələrindən istifadə istiqamətində atdığı addımlar, alternativ enerji mənbələrindən istifadəyə yönəlik tədbirlər, Qarabağın yaşıl enerji zonası elan edilməsi, alternativ enerji mənbələrindən yaradılan ixrac imkanları və s. Azərbaycan iqtisadiyyatının daha böyük uğurları üçün ciddi zəmindir. Bütün bunlar “Qarabağın-Şərqi Zəngəzurun cənnətə çevrilməsində” bir bazis, bünövrə olacaqdır.

Nəticə

Beləliklə, tədqiqat nəticəsində qeyd edilir ki, müəssisə kapitalı yalnız ölkənin iqtisadi artımını sürətləndirmir, həm də uzunmüddətli iqtisadi inkişafın dayanıqlı və davamlı olmasına şərait yaradır. Ümumilikdə, müəssisənin kapitalı iqtisadi inkişafın təməl daşlarından biridir. Onun düzgün yönləndirilməsi, sərfəli sahələrə investisiyalar edilməsi və inovasiyaların dəstəklənməsi ölkənin ümumi iqtisadiyyatını inkişaf etdirir, həm daxili bazarda, həm də beynəlxalq səviyyədə rəqabət qabiliyyətini artırır. Bu amillərin bir arada işləməsi nəticəsində, iqtisadiyyat daha güclü, dayanıqlı və davamlı inkişaf edir.

ƏDƏBİYYAT

1. Azərbaycan 2020: Gələcəyə Baxış İnkişaf Konsepsiyası. https://e-qanun.az/framework/25029.
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı: https://e-qanun.az/framework/57112
3. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. https://president.az/az/articles/view/50474
4. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi. İllik fəaliyyət hesabatları. https://smb.gov.az/az/nav/hesabatlar
5. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. (2024). Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı (2022–2026). www.ereforms.gov.az
6. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu. İllik hesabatlar, https://edf.gov.az/az/content/22
7. Bağırzadə E. “Bilik iqtisadiyyatı, iqtisadi artım və dövlət”. UNEC ekspert jurnalı, 2018, №5, səh. 8-11;
8. Əliyev, R.Ş. (2019). Sahibkarlığın inkişafında dövlətin rolu və iqtisadi siyasət tədbirləri. Bakı: İqtisadiyyat nəşriyyatı.
9. Əliyeva K.A. İnnovasiyalı iqtisadi artımın dövlət tənzimlənməsinin əsas istiqamətləri. Kooperasiya elmi-praktik jurnal, № 1 (56)-2020, s 229-235.
10. Əliyeva K.A., Əhmədova S.E. İqtisadi artım və ona təsir edən əsas amillər. Statistika xəbərləri, №1, 2019., s. 45-51.
11. Əliyeva K.A., Rüstəmov A.A., Azərbaycanda iqtisadi artım: şərait və amillər. Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər, №6 (95), s.190-195.
12. Əliyeva L.M. (2021). Müəssisə kapitalının iqtisadi artıma təsiri: Azərbaycan nümunəsində təhlil. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti, 214 s.
13. Qasımov A.Ə., Məmmədova S.M. (2020). İqtisadi artımın əsas amilləri və müəssisə kapitalının rolu. Bakı: ADNSU nəşriyyatı, 381 s.
14. Mamedov, R. (2022). Azərbaycan iqtisadiyyatında sahibkarlığın inkişaf tendensiyaları. İqtisadi və Sosial Araşdırmalar Jurnalı, 12(4), 45–56.
15. Məmmədov E. “İqtisadi inkişaf və artımın vergi yığımlarına təsiri olacaq”. https://vergiler.az/news/taxes/3370.html;
16. Doing Business 2023: Azerbaijan Country Profile. Washington, DC: World Bank Publications.
17. SME Policy Index: Eastern Partner Countries 2022 – Assessing the Implementation of the Small Business Act for Europe. OECD Publishing.
18. https://ereforms.gov.az/files/review/pdf/az/9526f22637142971331f577c211e3ec1.pdf;
19. www.stat.gov.az. ARDSK.

Вугар Мухтар оглы МЕХДИЕВ
доцент Азербайджанского Университета Кооперации,
доктор философии по экономике,
AZ1124, Азербайджанская Республика,
г.Баку, ул. Н.Нариманова 93
E-mail: vugar.m@muxtaroglu.az

Исследование текущего состояния участия капитала предприятия в экономическом развитии Азербайджана

Резюме

Цель исследования: Во многих исследованиях рассматривались многочисленные вопросы как капитала предприятия, так и развития национальной экономики. Однако роль капитала предприятия в развитии национальной экономики страны изучена недостаточно. Целью данной статьи является привлечение внимания исследователей к данной проблеме.

Методы исследования: Методология исследования основана на системном подходе и сравнительном анализе, рассматривающем государственные программы экономических реформ, реализуемые в стране, и их результаты, а также обобщении теоретических положений, отраженных в различных исследованиях по капиталу предприятий и его связи с экономическим развитием.

Прикладное значение исследования: Данная научно-исследовательская работа позволит сосредоточить внимание специалистов и исследователей на увеличении капитала отдельных предприятий и дальнейшем повышении эффективности их управления в целях обеспечения перспективного развития национальной экономики, и тем самым окажет положительное влияние на достижение целевого уровня развития экономики по приоритетным направлениям.

Результаты исследования: Отмечено, что между объемом капитала предприятий и показателями развития национальной экономики существует положительная связь.

Оригинальность и научная новизна исследования: Заключается в обосновании наличия прямой зависимости между текущим состоянием капитала предприятий и показателями развития национальной экономики, а также того, что увеличение капитала на отдельных предприятиях оказывает положительное влияние на общее экономическое развитие страны.

Ключевые слова: капитал предприятия, экономическое развитие, финансовые ресурсы, рост ВВП.

Vugar Muxtar MEHDIYEV
Associate Professor of Azerbaijan Cooperation University,
Doctor of Philosophy in Economics,
AZ1124, Azerbaijan Republic, Baku, N.Narimanov street 93
E-mail: vugar.m@muxtaroglu.az

Researching the current state of the participation of venture capital in the economic development of Azerbaijan

Summary

Purpose of the study: Many research studies have examined numerous issues of both enterprise capital and the development of the national economy. However, the role of enterprise capital in the development of the country's national economy has not been sufficiently studied. This article serves to draw the attention of researchers to such an issue.

Research methods: The methodology of the study is based on a systematic approach and

comparative analysis, and consists of examining state programs on economic reforms implemented in the country and their results, as well as summarizing theoretical provisions reflected in various research studies on enterprise capital and its relationship with economic development.

Applied significance of the study: This research study will focus the attention of specialists and researchers on increasing the capital of individual enterprises and further improving its management efficiency in order to ensure the future development of the national economy, and thus will have a positive impact on achieving the targeted level of economic development in priority areas.

Research results: It was noted that there is a supportive relationship between the volume of enterprise capital and the development indicators of the national economy.

Originality and scientific novelty of the research: It consists in substantiating the existence of a direct relationship between the current state of enterprise capital and the development indicators of the national economy, and the fact that increasing capital in individual enterprises has a positive impact on the overall economic development of the country.

Key words: enterprise capital, economic development, financial resources, GDP growth.